**Səbail rayonunda fəaliyyəti məhdudlaşdırılan ictimai iaşə müəssisəsində aşkarlanan nöqsanlara dair məlumat**

**(31 may 2024)**

Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) əməkdaşları tərəfindən Bakı şəhəri, Səbail rayonu, Ə.Əlizadə küçəsi, ev 8 ünvanında fəaliyyət göstərən "Luna Bistro" ictimai iaşə müəssisəsində yoxlama keçirilib. Yoxlama zamanı qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların, sanitariya norma və qaydalarının bir sıra tələblərinin pozulması faktları müəyyən edilib. Belə ki, müəssisənin qida təhlükəsizliyi qeydiyyatından keçmədən fəaliyyət göstərdiyi, temperatur rejiminə əməl olunmadığı, qida məhsullarının yuyulması üçün ayrıca yuma çanağının quraşdırılmadığı, mütəmadi təmizlik işlərinin aparılmadığı, işçilərin dövri tibbi müayinədən keçirilmədiyi və gigiyenik təlimlərə cəlb edilmədiyi aşkarlanıb.

Faktla bağlı sahibkar barəsində inzibati protokol tərtib olunub, müəssisənin fəaliyyəti məhdudlaşdırılıb.